إِنَّهُ مِنْ سُلَيْمَانَ وَإِنَّهُ بِسْمِ اللّٰهِ الرَّحْمٰنِ الرَّحِيمِ

# Quranımı Öyrənirəm

## Təcvidli
## QURANİ-KƏRİM
## ƏLİFBASI

***Həqiqətən, bu Quran*** (bütün bəşəriyyəti) ***ən doğru yola*** (islama) ***yönəldir, yaxşı işlər görən möminlərə böyük bir mükafata nail olacaqları ilə müjdə verir!***

*(İsra 17/9)*

*“Sizin ən xeyirliniz Quranı öyrənən və öyrədəndir!”*

*(Buxari, Fəzailul-Quran, 21)*

Allah-Təala Qurani-Kərimin ilk nazil olan ayəsində buyurur ki:
**“Yaradan Rəbbinin adıyla OXU!”**
Oxumaq və öyrənmək Rəbbimizin əmridir. Quran öyrənmək niyyətində olan bir insan da Sevimli Peyğəmbərimizin (s.ə.s) bu sözünü də əsla unutmamalıdır: *“Sizin ən xeyirliniz Quranı öyrənən və öyrədəndir!”*

Hər hərfi bir möcüzə olan Quran Allahın iradəsini ifadə edir. Onun hər hərfində min bir möcüzə gizlidir. Kim Qurana yaxındırsa, Allaha da yaxındır. Allaha yaxın olan da Quranın hikmətinə və sirlərinə nail olar, təfəkkürü dərinləşər, təqvalı ömür yaşayar. Təqva ilə ömür yaşayana da Allah sətirlərdə olmayanı öyrədər. Ayədə buyurulur: **“Allahdan qorxun, Allah sizə öyrədər.”**
(əl-Bəqərə, 282)

Həyat yolçuluğu böyük və dərin uçurumlarla doludur. Bu səfərdə insan üçün ən lazımlı kompas və rəhbər isə Allah tərəfindən ehsan edilmiş Qurani-Kərim və Həzrət Peyğəmbərdir. Bunlar insan həyatının ilahi müvazinəti üçün iki böyük nemətdir. Bəşəriyyəti ifrat və təfritdən qurtararaq istiqamət məhvərində qurtuluşa çatdıracaq ilahi lütfdür.

Qiymətli övladlarımız: Sizin daha rahat istifadə edə bilməniz üçün içərisinə təcvid qaydalarını da yerləşdirərək bu Əlifbanı hazırladıq. Diləyimiz daha həvəslə və maraqla Quran oxumağı öyrənib, ən xeyirlililər arasına qatılmanızdır..

Çalışmaq bizdən, müvəffəqiyyət isə Allahdandır.

Bu kitab Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin 22 may 2017-ci il DK-412/M nömrəli razılıq məktubu ilə nəşr edilmişdir.

بِسْمِ اللّٰهِ الرَّحْمٰنِ الرَّحِيمِ

إِنَّهُ مِنْ سُلَيْمَانَ وَإِنَّهُ

***Rəbbim! Asanlaşdır, çətinləşdirmə.***
***Rəbbim! İşimi xeyirlə tamamla".***

# QURANİ-KƏRİM ƏLİFBASI

Qurani-Kərim ərəbcə endirilmiş bir kitabdır. Bu səbəblə Quran ərəb əlifbası ilə yazılır və oxunur. Bu əlifba 28 hərfdən ibarətdir. Bizim əlifbamızdan fərqli olaraq Quran əlifbası sağdan sola doğru yazılır və oxunur. Yenə bizim əlifbamızdan fərqli olaraq Quran əlifbasında kiçik və böyük hərflər yoxdur. Qalın incə və peltək hərflər mövcuddur.

Qurani-Kərim hərfləri sırası ilə bunlardır:

| | | | | |
|---|---|---|---|---|
| ج Cim | ث *Sə | ة ت Tə | ب Bə | ا Əlif |
| ر Ra | ذ *Zəl | د Dəl | خ Xa | ح Ha |
| ض Dad | ص Sad | ش Şin | س Sin | ز Zə |
| ف Fə | غ Ğayn | ع Ayn | ظ *Za | ط Ta |
| م Mim | ل Lam | ڪ ك ک Kəf | | ق Qaf |
| ے يـ ى Yə | لا Laməlif | ـه ـهـ هـ ه Hə | و Vav | ن Nun |

İPƏKYOLU NƏŞRİYYATI

## QARIŞIQ CƏDVƏL

Aşağıdakı hərflərin adlarını söyləyin

| | | | | |
|---|---|---|---|---|
| ا | ز | ش | خ | د |
| ح | ت ة | ظ | س | ر |
| ط | ق | ک | ع | ض |
| ل | ذ | ص | ب | ف |
| هـ ـه | ى | غ | ث | و |
| م | ج | ه ـه | ن | ك |

*"Quranı lazımi şəkildə gözəl oxuyan kimsə, vəhy gətirən şərəfli və itaətkar mələklərlə bərabərdir".*

(Buxari, Tövhid, 52; Müslim, Müsafirin, 243)

İPƏKYOLU NƏŞRİYYATI

# QALIN HƏRFLƏR

Quran əlifbasında oxunuşuna görə qalın səslənən 8 hərf var.

| | | | |
|---|---|---|---|
| ط | ض | ص | خ |
| ر | ق | غ | ظ |
| Qeyd: | ر hərfi üstün və ötrədə qalın oxunur. Əsrədə isə incə hərflər kimi oxunur. | | |
| ع ح - **Ha** və **Ayn** hərfləri məxrəc olaraq incə hərflərdir, qalın deyil. | | | |

# PƏLTƏK HƏRFLƏR

Quran əlifbasında 3 dənə pəltək hərf var.
Pəltək hərflər dilin ucu üst dişlərin ucuna toxundurularaq oxunur

| | | |
|---|---|---|
| ظ | ذ | ث |
| dil ucunun üstü dişlərin başında, | dil ucunun üstü dişlərdən bir az irəlidə | dil ucunun üstü dişlərdən bir az irəlidə |

## Bir-birinə bənzəsə də, lakin oxunuşda bir-birindən fərqlənən hərflər

| | | | |
|---|---|---|---|
| ق – ك | ض – ظ | د – ض | ت – ط |
| ذ - ز - ظ | ح - خ - ه | ث - س - ص | |

İpəkYolu Nəşriyyatı

## HƏRFLƏRİN MƏXRƏCLƏRİ

Məxrəc Quran hərflərinin (ağız və boğazda) çıxdığı və başqa hərflərdən ayrıldığı yerə deyilir.

***Qurani-Kərim hərflərinin 17 məxrəci var:***

1. Ağızda havanın öz-özündən girib-çıxdığı yerdir. Buradan hərfi-mədd olan ( ى و ا ) çıxar. ( ا ) hərəkə aldığında həmzə olur. Hərəkəsiz gələrsə əslində hərf deyil, hərfi-məddir. (و) və (ى) isə hərəkə aldıqları zaman normal hərfə çevrilirlər.
2. Boğazın sinəyə bitişik yerindən (أ هـ) çıxar.
3. Boğazın ortasından (ع ح) çıxar.
4. Boğazın dilə bitişik yerindən (غ خ) çıxar.
5. Dilin boğaza bitişik yerindən və (dilin) üstü ilə bərabər (ق) çıxar.
6. (ق) məxrəcinin bir barmaq aşağısından (ك) çıxar.
7. (ك) məxrəcinin aşağısından və dilin ortasından (ج ش ى) çıxar.
8. Dilin iki yanından birinin (sol və ya sağ) azı diş ilə daha gerisindəkilərə xəfifcə dəyməsi ilə (ض) çıxar.
9. Dilin (ön) tərəfinin üst damaqdakı dəhik (azı), nəb (köpək dişləri), rəbaiyyə (öndəki dörd diş) və səniyyə (ön) dişlərinə dəyməsilə (ل) çıxar.
10. Dil ucunun üst ön dişlərinin ətlərinə dəyməsilə (ن) çıxar.
11. (ن) məxrəcinin bir az arxasından (ر) çıxar.
12. Dil ucu ilə üst ön dişlərinin yarısından yuxarısından (nisfi-əlasından) (ط د ت) çıxar.
13. Dil ucu ilə alt ön dişlərinin yarısının yuxarısından (ص س ز) çıxar.
14. Dil ucunun üst üzü ilə üst ön dişlərinin başlarından (ظ ذ ث) çıxar.
15. Üst ön dişlərinin başları ilə alt dodağın üzündən (ف) çıxar.
16. Dodaq məxrəci. Dodaqların sıx qapanmasıyla (ب), xəfif qapanmasıyla ( م ), qapanmadan bir-birinə yaxınlaşdırılmasıyla (zəmm edilməsi ilə) ( و ) çıxar.
17. Xəyşüm; yəni gəniz (burun) boşluğu. Buradan idğam və ixfa olan (ن) çıxar.

İPƏKYOLU NƏŞRİYYATI

# HƏRFLƏRİN BAŞDA, ORTADA və SONDA YAZILIŞ ŞƏKİLLƏRİ

Qurani-Kərim hərfləri də bizim əl yazısında olduğu kimi əvvəlində və sonrasında olan hərflərlə birləşərək yazılır və oxunur.

**Hərflərin BAŞDA Yazılış Şəkli (yəni; özündən sonrakı hərfə bitişmiş şəkli)**

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| خـ | حـ | جـ | ثـ | تـ | بـ | أ ا |
| صـ | شـ | سـ | ز | ر | ذ | د |
| قـ | فـ | غـ | عـ | ظ | ط | ضـ |
| يـ | هـ | و | نـ | مـ | لـ | كـ |

**Hərflərin ORTADA Yazılış Şəkli (yəni; hər iki tərəfə bitişmiş şəkli)**

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| ـخـ | ـحـ | ـجـ | ـثـ | ـتـ | ـبـ | ـأ ـئـ ـا |
| ـصـ | ـشـ | ـسـ | ـز | ـر | ـذ | ـد |
| ـقـ | ـفـ | ـغـ | ـعـ | ـظـ | ـطـ | ـضـ |
| ـيـ | ـهـ | ـو | ـنـ | ـمـ | ـلـ | ـكـ |

**Hərflərin SONDA Yazılış Şəkli (yəni; özündən əvvəlki hərfə bitişmiş şəkli)**

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| ـخ | ـح | ـج | ـث | ـة ـت | ـب | ء ـا ـأ |
| ـص | ـش | ـس | ـز | ـر | ـذ | ـد |
| ـق | ـف | ـغ | ـع | ـظ | ـط | ـض |
| ـي | ـه | ـو | ـن | ـم | ـل | ـك |

***Qeyd:** **Bu hərflər özündən sonrakı hərflə birləşməz:** ا د ذ ر ز و

İPƏKYOLU NƏŞRİYYATI

## ÜÇ HƏRƏKƏNİN OXUNUŞU

**ÜSTÜN (Fətha) ـَـ ƏSRƏ (Kəsra) ـِـ ÖTRƏ (Dəmmə) ـُـ**

Hərəkə Quran hərflərini səsləndirən işarələrə deyilir. Bu hərəkələr hərfin üstündə və ya altında yazılır. Quran hərflərini səsləndirən üç hərəkə var:
**Üstün** -hərflərin üzərində yazılan çəpinə xətdir. Qalın hərfləri “a” səsi ilə, incə hərfləri “ə” səsilə oxudur.
**Əsrə** -hərflərin altında yazılan çəpinə xətdir. İncə hərfləri “i” səsi ilə, qalın hərfləri “ı” səsinə meyilli oxudur.
**Ötrə** -hərflərin üzərində yazılan, kiçik vav hərfinə bənzər işarədir. Qalın hərfləri “u” səsilə, incə hərfləri “ü” səsinə meyilli oxudur.

| | | | |
|---|---|---|---|
| ثَ ثِ ثُ | تَ تِ تُ | بَ بِ بُ | اَ ئِ أُ |
| دَ دِ دُ | خَ خِ خُ | حَ حِ حُ | جَ جِ جُ |
| سَ سِ سُ | زَ زِ زُ | رَ رِ رُ | ذَ ذِ ذُ |
| طَ طِ طُ | ضَ ضِ ضُ | صَ صِ صُ | شَ شِ شُ |
| فَ فِ فُ | غَ غِ غُ | عَ عِ عُ | ظَ ظِ ظُ |
| مَ مِ مُ | لَ لِ لُ | كَ كِ كُ | قَ قِ قُ |
| يَ يِ يُ | هَ هِ هُ | وَ وِ وُ | نَ نِ نُ |

İPƏKYOLU NƏŞRİYYATI

*Quran oxuyun. Çünki Quran qiyamət günü onu oxuyanlara (ona dost olanlara) şəfaətçi olaraq gələcəkdir”.*

(Müslim, Salətul-Musafirin, 252)

# ÜÇ HƏRƏKƏNİN AYRI-AYRILIQDA OXUNUŞU

**ÜSTÜN ـَ İncə hərfləri “ə” səsi ilə, qalın hərfləri “a” səsi ilə oxudur.**

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| وَلَدَ | جَلَسَ | رَزَقَ | صَدَقَ | أَحَدَ | كَتَبَ | أَدَبَ |
| قَرَأَ | خَلَقَ | جَسَدَ | دَخَلَ | رَفَثَ | عَدَلَ | أَجَرَ |
| سَجَدَ | فَعَلَ | ضَرَبَ | حَشَرَ | بَصَرَ | نَزَلَ | وَرَقَ |

**ƏSRƏ ـِ İncə hərfləri “i” səsi ilə, qalın hərfləri “ı” səsinə meyilli oxudur.**

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| سَلِمَ | رَضِيَ | رَحِمَ | أَذِنَ | أَقِمَ | مَلِكَ | إِبِلِ |
| فَلَقِ | قِبَلِ | عَمِلَ | نَشِطَ | وَرِشَ | لَعِبَ | حَمِدَ |
| بَلَدِ | حَطَبِ | أَزِفَ | مَثَلِ | لَهَبِ | سَمِعَ | شَرِبَ |

**ÖTRƏ ـُ İncə hərfləri “ü” səsinə meyilli, qalın hərfləri “u” səsi ilə oxudur**

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| وُلِدَ | أُذِنَ | أُخِذَ | أُمِرَ | صُحُفِ | ثُلُثُ | رُسُلُ |
| فَهُوَ | يَلِجُ | خُلِقَ | سُئِلَ | صُنِعَ | ذُكِرَ | كُتِبَ |
| حَسَنَ | نُزِلَ | قُتِلَ | ظُلِمَ | يَرِثُ | كُتُبُ | صَمَدُ |

İPƏKYOLU NƏŞRİYYATI

*“İki cür adama qibtə edilir:*
*Quranı öyrənib daim oxuyana və çox malı olub*
*Allah yolunda xərcləyənə”.*

(Buxari, Tövhid, 45)

# UZATMA HƏRFLƏRİ - MƏDDİ-TƏBİİ

Məd uzatmaq deməkdir. Məddi-Təbii isə təbii olaraq uzatmaq deməkdir.
Üç dənə Məd hərfləri (işarəsi) vardır. ي - و - ا
Bu hərflərdən hər hansı biri hərəkəsiz gələrsə, özündən əvvəlki hərfi bir əlif miqdarı uzadaraq oxudar. (Bir əlif miqdarı demək; barmağı bir dəfə qaldırıb salana qədərki müddətdir). Hərflərin uzatma qaydasının ayrı-ayrı oxunuşu.

**Üstünlə uzatma –** Məddi-Təbii - ا

Hərəkəsi üstün olan hərfdən sonra hərəkəsiz **əlif** gələrsə incə hərfləri “ə”, qalın hərfləri “a” səsi ilə uzadaraq oxudar

| | | | | | |
|---|---|---|---|---|---|
| دَام | سَا | صَا | رَا | تَا | بَا |
| بَادَرَ | قَامَا | كَانَا | طَابَ | تَابَ | رَامَ |
| مَاقَالَ | قَالَا | مَاشَاءَ | مَاكَذَبَ | صَافَحَ | تَوَاعَدَ |

**Əsrə ilə uzatma –** Məddi-Təbi - ي

Hərəkəsi əsrə olan hərfdən sonra hərəkəsiz **ya** gələrsə incə hərfləri “i”, qalın hərfləri “ı” səsinə meyilli uzadaraq oxudar

| | | | | | |
|---|---|---|---|---|---|
| قِيلَ | غِي | فِي | جِي | تِي | بِي |
| شَافِي | لَفِي | اَبِي | خِيفَ | كِيدَ | نِيلَ |
| أَبَابِيلَ | غَافِلِينَ | مُهِينُ | وَحِيلَ | يَقِينَ | يَتِيمَ |

**Ötrə ilə uzatma –** Məddi-Təbii - و

Hərəkəsi ötrə olan hərfdən sonra hərəkəsiz **vav** gələrsə incə hərfləri “ü” səsinə meyilli, qalın hərfləri “u” səsi ilə uzadaraq oxudar

| | | | | | |
|---|---|---|---|---|---|
| أَعُوذُ | رُو | دُو | ثُو | تُو | بُو |
| هُودُ | نُوحُ | قُولُو | يَكُونُ | يَقُولُ | أَقُولُ |
| يُرِيدُونَ | خَالِدُونَ | يَلِدُونَ | يَعْلَمُونَ | يَمُوتُونَ | يَصُومُونَ |

*Qəlbində Qurandan heç bir ayə və surə olmayan kəs xaraba ev kimidir”.*
(Tirmizi, Fəzailul-Quran, 18)

İPƏKYOLU NƏŞRİYYATI

## CƏZM ـْـ

Hərfin üzərinə kiçik dairə şəklində (ـْـ) qoyulan işarəyə Cəzm deyilir.
Hərflərin hərəkəsiz oxunmasına səbəb olur.
Üzərinə yazıldığı hərfi əvvəlki hərfə bağlayaraq bir hecada oxudur

| | | | | |
|---|---|---|---|---|
| اِذَنْ | قُلْ | لَمْ | لَنْ | اَنْ |
| عَلَيْهِمْ | نَشْرَحْ | لَمْ يَلِدْ | نَحْنُ | اِنْ |
| اِنْ تَغْفِرْ | قَدْقَامَتْ | اَنْعَمْتَ | مَنْ مَاتَ | اَشْهَدُ |

## ŞƏDDƏ ـّـ

Hərfin üzərinə qoyulan (ـّـ) şəklində işarədir.
Üzərinə yazıldığı hərfi (öncə cəzmli, sonra hərəkəli olaraq) iki dəfə oxudur.
Məs: إِنَّ = نَ + إِنْ

| | | | | |
|---|---|---|---|---|
| تَبَّ | شَدَّ | اَنَّ | اَلَّ | اِنَّ |
| فَصَلِّ | اِيَّاكَ | اِلَّا | رَبَّ | جَلَّ |
| مُوَلِّي | جَنَّةٌ | يَصُدُّ | قَدَّرَ | بَلَّغَ |

İPƏKYOLU NƏŞRİYYATI

*"Allah-Təala bu Quranla qövmləri yüksəldər.*
*Ona görə əməl etməyənləri isə alçaldar".*

(Müslim, Müsafirin, 47)

## TƏNVİN

**İKİ ÜSTÜN** ـً | **İKİ ƏSRƏ** ـٍ | **İKİ ÖTRƏ** ـٌ

Kəlmənin sonuna cəzmli **"nuń"** səsi verən iki üstün (ً) , iki əsrə (ٍ) və iki ötrə (ٌ) işarələrinə tənvin deyilir. Yazıldığı hərfin sonuna "n" səsi verərək oxudur.

**TƏNVİN İKİ ÜSTÜN** ـً Hərfin üstünə yazılır. İncə hərfləri **"əń"**, qalın hərfləri **"ań"** səsi əlavə edərək oxudur.

| | | | | | |
|---|---|---|---|---|---|
| كُفُوًا | حَسَنًا | عَمَلًا | بَشَرًا | رَغَدًا | أَبَدًا |
| أَفْوَاجًا | أَوْتَادًا | تَوَّابًا | حَقًّا | عَرَبِيًّا | عُلُوًّا |
| عُرُبًا | هُودًا | دُعَاءً | نِدَاءً | كَبِيرًا | رُجُومًا |

**TƏNVİN İKİ ƏSRƏ** ـٍ Hərfin altına yazılır. İncə hərfi **"iń"**, qalın hərfi **"ıń"** səsinə meyilli oxudur.

| | | | | | |
|---|---|---|---|---|---|
| أَجَلٍ | كَبَدٍ | مَسَدٍ | وَرَعٍ | لَهَبٍ | وَرَقٍ |
| سِجِّيلٍ | قِيَامٍ | كَلَامٍ | غَنِيٍّ | جَدٍّ | عَلِيٍّ |
| أُنَاسٍ | إِيمَانٍ | إِسْلَامٍ | مَأْكُولٍ | كَعَصْفٍ | قُرَيْشٍ |

**TƏNVİN İKİ ÖTRƏ** ـٌ Hərfin üstünə yazılır. Hərflərə **"uń"** səsini verərək oxudur.

| | | | | | |
|---|---|---|---|---|---|
| أَجَلٌ | مَلَكٌ | بَشَرٌ | أَزَلٌ | أَبَدٌ | رَجُلٌ |
| عُلُوٌّ | قُدُّوسٌ | شَهِيدٌ | رَزَّاقٌ | رَسُولٌ | مُحَمَّدٌ |
| فُرْقَانٌ | مُطَهَّرَةٌ | مِيزَانٌ | سِنَةٌ | فَوَيْلٌ | أَدَاءٌ |

İPƏKYOLU NƏŞRİYYATI

## ÇƏKƏR ـٰـ ـٖـ

Üzərinə və ya altına yazıldığı hərfin uzadılacağını göstərən (ـٰـ) işarəyə çəkər deyilir. Çəkər işarəsi yazılan yerdə gizli uzatma hərfi vardır deməkdir. Üzərinə və ya altına yazıldığı hərfi bir əlif miqdarı uzadaraq oxudur.

| | | | |
|---|---|---|---|
| قُرْاٰنٌ | رَحْمٰنٌ | اٰدَمَ | اٰمَنَ |
| اٰيَاتٌ | ذٰلِكَ | هٰذَا | هٰهُنَا |
| إِلٰهُكُمْ | إِسْمٰعِيلُ | إِبْرٰهِيمَ | سُلَيْمٰنَ |

## Vav ( و ) və Ya ( ي ) şəklində yazılan Əlif ( ا )

Qurani-Kərim yazısında əlif hərfi, uzadılan yerlərdə ümumiyyətlə əlif ( ا ) şəklində yazılsa da, bəzi hallarda Vav ( و ), bəzi hallarda isə Yə (ي) şəklində də yazılaraq uzadılmaqdadır.

| | | | |
|---|---|---|---|
| بَلٰى | تَعَالٰى | عَلٰى | اِلٰى |
| اٰتٰيهُمْ | فَاٰوٰيكُمْ | صَلٰوةٌ | حَيٰوةٌ |

*“Şübhəsiz bu Quran Allahın ziyafət süfrəsidir.*
*Bu səbəblə ondan gücünüz çatdığı qədər alın (öyrənin)”.*

(Hakim, Müstədrək, I, 741; Darimi, Fədailul-Quran, 1)

İPƏKYOLU NƏŞRİYYATI

## MƏDDİ-MÜTTƏSİL

Bitişik Məd deməkdir. Uzatma işarəsi budur: ~
Məd (uzatma) hərflərindən sonra həmzə gələrsə və hər ikisi də eyni kəlmədə olarsa, dörd əlif miqdarı uzadılaraq oxunar. (Məddi-müttəsildə həmzə hər zaman qısa əlif ( ء ) şəklində yazılır).

| | | | |
|---|---|---|---|
| لَوْ شَآءَ | أَوْلِيَآءَ | شُهَدَآءَ | جَآءَ |
| سُوٓءَ | قَدْ جَآءَكُمْ | سَوَآءً | اُولٰٓئِكَ قصر |
| سَيِّئَتْ | طَٓائِرُكُمْ | اٰبَٓاؤُكُمْ قصر | يَشَٓاءُ |

İPƏKYOLU NƏŞRİYYATI

## MƏDDİ-MÜNFƏSİL

Bitişik olmayan Məd deməkdir. Uzatma işarəsi budur: ~
Məd (uzatma) hərflərindən sonra əlif gələrsə və hərəsi ayrı-ayrı kəlmələrdə olarsa, dörd əlif miqdarı uzadılaraq oxunar. (Məddi-münfəsildə həmzə hər zaman uzun əlif ( ا ) şəklində yazılır).

| | | | |
|---|---|---|---|
| لَٓا أَعْبُدُ | هَٓا أَنْتُمْ | وَمَٓا أُنْزِلَ | يَٓا أَيُّهَا |
| قَالُوٓا إِنَّ | فِيٓ أَيْدِيكُمْ | يَٓا اٰدَمُ | بِمَٓا أُنْزِلَ |
| كَانُوٓا أَشَدَّ | وَمَٓا أَرْسَلْنَا | تُوبُوٓا إِلَى اللّٰهِ | فِيٓ أَحْسَنِ |

*“Kim Quran oxuyar və içindəkilərlə əməl edərsə, qiyamət günü onun ata və anasının başına tac qoyular. O tacın işığı dünya günəşinin işığından daha gözəldir. Buna görə də Quranla əməl edənlərin vəziyyətini siz düşünün!”*

(Əbu Davud, Vitr, 14)

## LƏFZƏTULLAH

Allah sözündəki “lam” hərfindən əvvəlki hərfin hərəkəsi üstün və ya ötrə olarsa, Allah ( اَللّٰهُ ) sözündəki şəddəli lam (ل) hərfi “A” deyə qalın, əsrə olarsa lam (ل) hərfi “Ə” deyə incə oxunar.

| | | | | |
|---|---|---|---|---|
| مِنَ اللّٰهِ | لِلّٰهِ | اَهْلُ اللّٰهِ | وَاللّٰهُ | اَللّٰهُ |
| هُوَ اللّٰهُ | اٰيَاتِ اللّٰهِ | بِسْمِ اللّٰهِ | بِاللّٰهِ | تَاللّٰهِ |
| يُثَبِّتُ اللّٰهُ | إِتَّقِ اللّٰهَ | نَصْرُ اللّٰهِ | رَسُولُ اللّٰهِ | رَضِيَ اللّٰهُ |

## OXUNMAYAN ƏLİF – ZAİD ƏLİF

Zaid əlif bəzi ərəbcə (cəm və əmr formalarındakı) kəlmələrdə yazıldığı halda oxunmaz. Bu əlif hərfi kəlmənin əvvəlində və ya sonunda yazılır, lakin oxunmur.

| | | | |
|---|---|---|---|
| فَاصْبِرْ | وَاعْبُدُوا | وَاعْلَمُوا | قَالُوا |
| رَأَوْا | بِاسْمِكَ | وَتَوَاصَوْا | وَالْحَمْدُ |
| وَارْحَمْنَا | وَاغْفِرْلَنَا | وَارْعَوْا | اٰمَنُوا |

وَاعْلَمُوا أَنَّ اللّٰهَ بِكُلِّ شَيْءٍ عَلِيمٌ ۞ لَقَدْ مَنَّ اللّٰهُ عَلَى الْمُؤْمِنِينَ ۞ فَاتَّقُوا
النَّارَ الَّتِي وَقُودُهَا النَّاسُ وَالْحِجَارَةُ ۞ رَسُولٌ مِنَ اللّٰهِ يَتْلُو صُحُفًا مُطَهَّرَةً

İPƏKYOLU NƏŞRİYYATI

## ZAMİR - ه ـه

Zamir bizim dilimizdəki “əvəzlik” yerindədir.
Əgər zamirdən əvvəlki hərf hərəkəli olarsa, (ـه) uzadılaraq, hərəkəsizdirsə (yəni; istər cəzmli, istər cəzmsiz olarsa) (ـه) uzadılmadan oxunur.

| | | | | |
|---|---|---|---|---|
| إِنَّهُ | رَبُّهُ | قَوْلُهُ | أَهْلُهُ | لَهُ |
| يَهْدِيهِ | فِيهِ | إِلَيْهِ | مِنْهُ | عَنْهُ |
| أَنْزَلْنَاهُ | وَرَسُولِهِ | قَتَلُوهُ | وَبَرَكَاتُهُ | كُتُبِهِ |

## TƏ-MƏRBUTƏ - ة ـة

Tə-mərbutə (ة ـة) tə (ت) hərfinin qapalı şəklidir. Adətən isimlərin sonunda yazılır. Oxunuşu tə ( ت ) hərfindən bu şəkildə fərqlənir: durularkən cəzmli hə ( ـه ) olaraq, keçərkən hərəkəli tə ( ت ) olaraq oxunur.

| | |
|---|---|
| قَارِعَةْ - قَارِعَةُ | شَجَرَةْ - شَجَرَةَ |
| صَلَاةْ - صَلَاةِ | جَنَّةْ - جَنَّةُ |

مَا أَغْنَى عَنْهُ مَالُهُ وَمَا كَسَبَ ۞ يَحْسَبُ أَنَّ مَالَهُ أَخْلَدَهُ ۞
ثُمَّ رَدَدْنَاهُ أَسْفَلَ سَافِلِينَ

İpəkyolu Nəşriyyatı

## ال -ın İDĞAMI (İdğam-Şəmsiyyə)

Əlif-lam ( اَلْ ) birləşməsindən sonra şəmsi hərflərdən biri gələrsə, əlif-lam ( اَلْ ) birləşməsi oxunmaz. Şəmsi hərflər şəddəli oxunar. Buna **İdğam-Şəmsiyyə** deyilir. Şəmsi hərflər bunlardır:

ت، ث، د، ذ، ر، ز، س، ش، ص، ض، ط، ظ، ل، ن

| | | | |
|---|---|---|---|
| وَالشَّمْسِ | وَالنَّجْمِ | وَالسَّلَامُ | وَالضُّحٰي |
| وَالذَّارِيَاتِ | أَللُّؤْلُؤُ | وَالتِّينِ | وَالنَّاسُ |
| اَلدِّينُ | أَلرَّحْمٰنُ | أَلرَّحِيمُ | هُمُ السُّفَهَآءُ |

## ال-ın İZHARI (İzhar-Qəmariyyə)

Əlif-lam ( اَلْ ) birləşməsindən sonra qəməri hərflərdən biri gələrsə, əlif-lam ( اَلْ ) birləşməsi oxunur. ( اَلْ ) birləşməsindən əvvəl hərəkəli bir hərf gələrsə, o kəlmə əlif-lamına birləşər. Buna da **İzhar-Qəməriyyə** deyilir.

Qəməri hərflər bunlardır:

ا، ب، ج، ح، خ، ع، غ، ف، ق، ك، م، و، ه، ي

| | | | |
|---|---|---|---|
| أَلْمَلِكُ | اَلْأَوَّلُ | وَالْحَمْدُ | وَالْقَمَرُ |
| وَالْعَصْرِ | أَلْعَزِيزُ | أَلْغَفُورُ | أَلْمَغْضُوبِ |
| أَلْقُرْاٰنُ | أَلْكِتَابُ | مِنَ الْمَآءِ | رَبِّ الْعَالَمِينَ |

وَالتِّينِ وَالزَّيْتُونِ ۞ وَالْقَمَرِ إِذَا تَلَاهَا ۞ اَلْحَمْدُ لِلّٰهِ رَبِّ الْعَالَمِينَ ۞

İPƏKYOLU NƏŞRİYYATI

## HÜRUFUL-MUQATTA

Bir və ya bir neçə hərfdən meydana gəlir. Qurani-Kərimin 29 surəsinin başında bu hərflər yazılmaqdadır. Oxunuşları özünəməxsus tərzdədir. Bu hərflər öz adlarıyla oxunur. Hansı hərfin üstündə “ ٓ - məd“ işarəsi olarsa, dörd əlif miqdarı uzadılaraq oxunur. ( ع ) hərfi istisnadır.

| | | | |
|---|---|---|---|
| طٰهٰ | قٓ | نٓ | صٓ |
| طَاهَا | قَآفْ | نُونْ | صَآدْ |

| | | | |
|---|---|---|---|
| الٓرٰ | الٓمٓ | يٰسٓ | حٰمٓ |
| أَلِفْ لَآمْ رَا | أَلِفْ لَآمْ مِيٓمْ | يَاسِيٓنْ | حَامِيٓمْ |

| | | | |
|---|---|---|---|
| الٓمٓصٓ | الٓمٓرٰ | طٰسٓمٓ | طٰسٓ |
| أَلِفْ لَآمْ مِيٓمْ صَآدْ | أَلِفْ لَآمْ مِيٓمْ رَا | طَاسِيٓنْ مِيٓمْ | طَاسِيٓنْ |

| | |
|---|---|
| كٓهٰيٰعٓصٓ | حٰمٓ عٓسٓقٓ |
| كَآفْ هَا يَا عَيٓنْ صَآدْ | حَامِيٓمْ عَيٓنْ سِيٓنْ قَآفْ |

İPƏKYOLU NƏŞRİYYATI

*“Quran oxuyan mömin qoxusu və dadı gözəl olan portağal kimidir.*
*Quran oxumayan mömin isə dadı gözəl fəqət qoxusu olmayan xurma kimidir.*
*Quran oxuyan münafiq qoxusu gözəl, amma dadı acı olan reyhan (nanə) kimidir.*
*Quran oxumayan münafiq isə qoxusu olmayan acı Əbu cəhil qarpızı (dadı və qoxusu olmayan acı bir meyvə) kimidir”.*

(Buxari, Ətimə, 30)

## NAMAZIN İÇİNDƏ OXUNAN TƏSBİHAT - ZİKRLƏR

| | | |
|---|---|---|
| ***Təkbir Namaza başlayarkən oxunur:*** | اَللّٰهُ أَكْبَرُ | Allah ən Böyükdür |
| ***Rükuda 3 dəfə oxunur:*** | سُبْحَانَ رَبِّيَ الْعَظِيمِ | Ey böyük Rəbbim! Səni bütün nöqsanlıqlardan uzaq tuturam |
| ***Rükudan qalxarkən oxunur:*** | سَمِعَ اللّٰهُ لِمَنْ حَمِدَهُ | Allah, Ona həmd edənləri eşidir |
| ***Rükudan qalxdıqdan sonra oxunur:*** | رَبَّنَا لَكَ الْحَمْدُ | Ey Rəbbimiz, həmd ancaq Sənədir |
| ***Səcdədə 3 dəfə oxunur:*** | سُبْحَانَ رَبِّيَ الْأَعْلٰى | Ey uca Rəbbim! Səni bütün nöqsanlıqlardan uzaq tuturam! |
| ***Namaz bitəndə sağa və sola salam verərkən oxunur:*** | اَلسَّلَامُ عَلَيْكُمْ وَرَحْمَةُ اللّٰهِ | Allahın salamı və rəhməti üzərinizə olsun |

## NAMAZDAN SONRA OXUNAN TƏSBİHAT - ZİKRLƏR

| | |
|---|---|
| **Salam verdikdən sonra oxunur**<br>*(Allahım! Sən nöqsanlardan uzaqsan, hər cür əmin-amanlıq Sənədir. Ey əzəmət və kərəm sahibi Allahım! Sənin şanın ucadır). Peyğəmbərimizə salam olsun!* | أَللّٰهُمَّ اَنْتَ السَّلَامُ وَ مِنْكَ السَّلَامُ تَبَارَكْتَ<br>يَاذَا الْجَلَالِ وَالْإِكْرَامِ<br>عَلٰى رَسُولِنَا صَلَوَاتْ |
| **Namazı qurtardıqdan sonra oxunur**<br>*Allah hər cür nöqsandan uzaqdır. Həmd Onadır. Allahdan başqa ilah yoxdur. Allah ən böyükdür. Həqiqi güc-qüvvət sahibi sadəcə uca və böyük olan Allahdır!* | سُبْحَانَ اللّٰهِ وَ الْحَمْدُ لِلّٰهِ وَ لَآ اِلٰهَ اِلَّا اللّٰهُ<br>وَاللّٰهُ اَكْبَرُ وَلَا حَوْلَ وَلَا قُوَّةَ<br>اِلَّا بِاللّٰهِ الْعَلِيِّ الْعَظِيمِ |
| **Hər zikrdən 33 dəfə oxunar**<br>*Allah hər cür nöqsandan uzaqdır, Hər cür həmd Allaha məxsusdur, Allah ən böyükdür* | سُبْحَانَ اللّٰهِ، اَلْحَمْدُ لِلّٰهِ، أَللّٰهُ أَكْبَرُ |
| **Zikrlərdən sonra oxunur**<br>*Allahdan başqa ilah yoxdur. O, təkdir, şəriki yoxdur. Mülk Ona aiddir. Hər cür həmd Onadır. O, hər şeyə qadirdir.* | لَآ إِلٰهَ إِلَّا اللّٰهُ وَحْدَهُ لَا شَرِيكَ لَهُ،<br>لَهُ الْمُلْكُ وَلَهُ الْحَمْدُ<br>وَهُوَ عَلٰى كُلِّ شَيْءٍ قَدِيرٌ |
| *Ehsanı bol olan uca Rəbbim hər cür nöqsandan uzaqdır. (Ardından dua edilir)* | سُبْحَانَ رَبِّيَ الْعَلِيِّ الْأَعْلَى الْوَهَّابِ |

İPƏKYOLU NƏŞRİYYATI

## KƏLMEYİ-ŞƏHADƏT

أَشْهَدُ أَنْ لَآ إِلٰهَ إِلَّا اللّٰهُ
وَأَشْهَدُ أَنَّ مُحَمَّدًا عَبْدُهُ وَرَسُولُهُ

**Mənası:**
Mən şahidlik edirəm ki, Allahdan başqa (ibadətə layiq heç bir) ilah yoxdur. Və mən yenə şahidlik edirəm ki, Muhamməd (s.ə.s) Allahın qulu və elçisidir.

## KƏLMEYİ-TÖVHİD

لَآ إِلٰهَ إِلَّا اللّٰهُ مُحَمَّدٌ رَسُولُ اللّٰهِ

**Mənası:**
Allahdan başqa (ibadətə layiq heç bir) ilah yoxdur.
Muhamməd (s.ə.s) Allahın elçisidir.

## AMƏNTU

اٰمَنْتُ بِاللّٰهِ وَ مَلآئِكَتِهِ وَ كُتُبِهِ وَ رُسُلِهِ , وَالْيَوْمِ الْاٰخِرِ
وَبِالْقَدَرِ خَيْرِهِ وَ شَرِّهِ مِنَ اللّٰهِ تَعَالٰى , وَالْبَعْثُ بَعْدَ
الْمَوْتِ حَقٌّ , اَشْهَدُ اَنْ لَآ اِلٰهَ اِلَّا اللّٰهُ
وَ اَشْهَدُ اَنَّ مُحَمَّدًا عَبْدُهُ وَ رَسُولُهُ

**Mənası:**
Mən Allaha, mələklərinə, kitablarına, peyğəmbərlərinə, axirət gününə, qədərin (xeyir və şərin) Allahdan olduğuna iman etdim. Öldükdən sonra dirilmək haqddır. Mən şahidlik edirəm ki, Allahdan başqa (ibadətə layiq heç bir) ilah yoxdur. Və mən yenə şahidlik edirəm ki, Muhamməd (s.ə.s) Allahın qulu və elçisidir.

İPƏKYOLU NƏŞRİYYATI

## SUBHANƏKƏ DUASI

سُبْحَانَكَ اللّٰهُمَّ وَبِحَمْدِكَ وَتَبَارَكَ اسْمُكَ

وَتَعَالٰى جَدُّكَ *(وَجَلَّ ثَنَاؤُكَ) وَلَآ إِلٰهَ غَيْرُكَ

**Mənası:**
Allahım! Sənə həmd edərək Səni hər cür nöqsandan uzaq tuturam. Sənin adın mübarəkdir. Varlığın hər şeydən üstündür. Sən tərifə ən layiq olansan. Səndən başqa ilah yoxdur.

*(وَجَلَّ ثَنَاؤُكَ) *ifadəsi yalnız cənazə namazlarında oxunur.*

## TƏHİYYAT DUASI

أَلتَّحِيَّاتُ لِلّٰهِ وَالصَّلَوَاتُ وَالطَّيِّبَاتُ أَلسَّلَامُ عَلَيْكَ

أَيُّهَا النَّبِيُّ وَرَحْمَةُ اللّٰهِ وَبَرَكَاتُهُ أَلسَّلَامُ عَلَيْنَا وَعَلٰى

عِبَادِ اللّٰهِ الصَّالِحِينَ أَشْهَدُ أَنْ لَآ إِلٰهَ إِلَّا اللّٰهُ

وَأَشْهَدُ أَنَّ مُحَمَّدًا عَبْدُهُ وَرَسُولُهُ

**Mənası:**
Salamlar, dualar və bütün gözəlliklər Allaha məxsusdur. Ey Peyğəmbər! Allahın salamı, rəhmət və bərəkətləri Sənin üzərinə olsun. Salam bizim və Allahın saleh qullarının üzərinə olsun. Mən şahidlik edirəm ki, Allahdan başqa (ibadətə layiq heç bir) ilah yoxdur. Və mən yenə şahidlik edirəm ki, Muhamməd (s.ə.s) Allahın qulu və rəsuludur.

## ALLAHUMMƏ SALLİ DUASI

أَللّٰهُمَّ صَلِّ عَلٰى مُحَمَّدٍ وَعَلٰى اٰلِ مُحَمَّدٍ

كَمَا صَلَّيْتَ عَلٰى إِبْرَاهِيمَ وَعَلٰى اٰلِ إِبْرَاهِيمَ

إِنَّكَ حَمِيدٌ مَجِيدٌ

İPƏKYOLU NƏŞRİYYATI

**Mənası**:
Allahım! Muhammədə (s.ə.s) və Muhammədin (s.ə.s) ailəsinə rəhmət elə. İbrahimə (ə.s) və İbrahimin ailəsinə rəhmət etdiyin kimi. Şübhəsiz, tərifəlayiq yalnız Sənsən, şan və şərəf sahibi də Sənsən.

## ALLAHUMMƏ BƏRİK DUASI

İPƏKYOLU NƏŞRİYYATI

أَللّٰهُمَّ بَارِكْ عَلٰى مُحَمَّدٍ وَعَلٰى اٰلِ مُحَمَّدٍ كَمَا
بَارَكْتَ عَلٰى إِبْرَاهِيمَ وَعَلٰى اٰلِ إِبْرَاهِيمَ
إِنَّكَ حَمِيدٌ مَجِيدٌ

**Mənası**:
Allahım! Muhammədə (s.ə.s) və Muhammədin (s.ə.s) ailəsinə bərəkət ver. İbrahimə (ə.s) və İbrahimin ailəsinə bərəkət verdiyin kimi. Şübhəsiz, tərifəlayiq yalnız Sənsən, şan və şərəf sahibi də Sənsən.

## RABBƏNƏ ƏTİNƏ DUASI

رَبَّنَا اٰتِنَا فِى الدُّنْيَا حَسَنَةً وَفِى
الْاٰخِرَةِ حَسَنَةً وَقِنَا عَذَابَ النَّارِ

**Mənası:**
Ey Rəbbimiz! Bizə dünyada da, axirətdə də gözəl nemətlər ver və bizi cəhənnəm əzabından qoru!

## RABBƏNƏĞFİRLİ DUASI

رَبَّنَا اغْفِرْ لِى وَلِوَالِدَىَّ وَلِلْمُؤْمِنِينَ يَوْمَ يَقُومُ الْحِسَابُ

**Mənası**:
Ey Rəbbimiz! Məni, valideynlərimi və bütün möminləri hesab günündə (qiyamətdə) bağışla!

## QUNUT DUALARI

أَللّٰهُمَّ إِنَّا نَسْتَعِينُكَ وَ نَسْتَغْفِرُكَ وَ نَسْتَهْدِيكَ ۞
وَ نُؤْمِنُ بِكَ وَ نَتُوبُ اِلَيْكَ ۞ وَ نَتَوَكَّلُ عَلَيْكَ
وَنُثْنِى عَلَيْكَ الْخَيْرَ كُلَّهُ نَشْكُرُكَ وَ لَا نَكْفُرُكَ ۞
وَ نَخْلَعُ وَ نَتْرُكُ مَنْ يَفْجُرُكَ

**Mənası**:
Allahım! Biz Səndən kömək istəyir, günahlarımızı bağışlamanı, bizi doğru yola yönəltməni diləyirik. Sənə iman edir, tövbə edib Sənə dönürük və işlərimizdə Sənə arxalanıb, Sənə güvənirik. Səni tərifləyirik. Bütün xeyirlərin Səndən olduğunu söyləyirik. Sənə şükr edirik və nankorluq etmirik. Sənə qarşı nankorluq edənlərdən ayrılıb onlarla əlaqəmizi kəsirik.

أَللّٰهُمَّ اِيَّاكَ نَعْبُدُ وَ لَكَ نُصَلِّى وَ نَسْجُدُ ۞ وَ اِلَيْكَ
نَسْعٰى وَ نَحْفِدُ ۞ نَرْجُو رَحْمَتَكَ وَ نَخْشٰى عَذَابَكَ ۞
اِنَّ عَذَابَكَ بِالْكُفَّارِ مُلْحِقٌ

**Mənası**:
Allahım! Yalnız Sənə ibadət və qulluq edir və yalnız Sənin üçün namaz qılırıq. Ancaq Sənə səcdə edirik. Yalnız Sənə yönəlir, Sənə sevgi ilə ibadət edirik. Sənin rəhmətini diləyib, əzabından qorxuruq. Çünki Sənin əzabın kafirləri tutar.

## TƏŞRİQ TƏKBİRLƏRİ

اَللّٰهُ اَكْبَرُ، اَللّٰهُ اَكْبَرُ ۞ لَآ اِلٰهَ اِلَّا اللّٰهُ وَاللّٰهُ اَكْبَرُ ۞
اَللّٰهُ اَكْبَرُ وَ لِلّٰهِ الْحَمْدُ ۞

**Mənası:**
Allah ən böyükdür, Allah ən böyükdür. Allahdan başqa ilah yoxdur. Allah ən böyükdür. Allah ən böyükdür. Hər cür həmd Allaha məxsusdur.

İPƏKYOLU NƏŞRİYYATI

## İftitah Duası

وَجَّهْتُ وَجْهِيَ لِلَّذِي فَطَرَ السَّمٰوَاتِ وَالْأَرْضَ حَنِيفًا
مُسْلِمًا وَمَا اَنَا مِنَ الْمُشْرِكِينَ. إِنَّ صَلَاتِي وَنُسُكِي
وَمَحْيَايَ وَمَمَاتِي لِلّٰهِ رَبِّ الْعَالَمِينَ. لَا شَرِيكَ لَهُ.
وَبِذٰلِكَ أُمِرْتُ وَأَنَا مِنَ الْمُسْلِمِينَ

**Mənası:**
Şübhəsiz ki, mən üzümü yerləri və göyləri yaratmış olan Uca Allaha (c.c) çevirdim. Mən müşrik qullardan deyiləm. Şübhəsiz ki, mənim namazım, ibadətlərim, doğru olduğum həyatım və ölümüm heç bir ortağı olmayan bütün aləmlərin yaradıcısı olan Allah (c. c) üçündür. Sənin ortağın/şərikin yoxdur. Mən ancaq bununla əmr olundum və mən müsəlman olanlardanam.

İPƏKYOLU NƏŞRİYYATI

## Təhiyyat Duası

أَلتَّحِيَّاتُ الْمُبَارَكَاتُ الصَّلَوَاتُ الطَّيِّبَاتُ لِلّٰهِ، اَلسَّلَامُ
عَلَيْكَ أَيُّهَا النَّبِيُّ وَرَحْمَةُ اللّٰهِ وَبَرَكَاتُهُ، اَلسَّلَامُ عَلَيْنَا
وَعَلٰى عِبَادِ اللّٰهِ الصَّالِحِينَ، أَشْهَدُ أَنْ لَآ إِلٰهَ إِلَّا اللّٰهُ،
وَ أَشْهَدُ أَنَّ سَيِّدَنَا مُحَمَّدًا رَسُولُ اللّٰهِ

**Mənası:**
Təhiyyallar (salamlar, təriflər), bərəkətlər, salavatlar və gözəl şeylər Allahındır. Ey Peyğəmbər! Allahın salamı, rəhməti və bərəkəti Sənin üzərinə olsun. Bizə və saleh qulların üzərinə də salam olsun. Mən şahidlik edərəm ki, Allahdan başqa ilah yoxdur və yenə şahidlik edərəm ki, Muhamməd (s.ə.s) Allahın rəsuludur.

## Salli - Bərik Duaları

أَللّٰهُمَّ صَلِّ عَلٰى مُحَمَّدٍ وَعَلٰى اٰلِ مُحَمَّدٍ ۞ كَمَا صَلَّيْتَ
عَلٰى إِبْرَاهِيمَ وَعَلٰى اٰلِ إِبْرَاهِيمَ ۞ وَ بَارِكْ عَلٰى مُحَمَّدٍ
وَعَلٰى اٰلِ مُحَمَّدٍ ۞ كَمَا بَارَكْتَ عَلٰى إِبْرَاهِيمَ وَعَلٰى
اٰلِ إِبْرَاهِيمَ فِي الْعَالَمِينَ إِنَّكَ حَمِيدٌ مَجِيدٌ

**Mənası:**
Allahım! İbrahimə (ə.s) və İbrahimin ailəsinə rəhmət etdiyin kimi Muhammədə (s.ə.s) və ailəsinə rəhmət elə. İbrahimə (ə.s) və İbrahimin ailəsinə bərəkət verdiyin kimi Muhammədə (s.ə.s) və ailəsinə bərəkət ver. Şübhəsiz, tərifəlayiq yalnız Sənsən, şan və şərəf sahibi də Sənsən.

## Qunut Duaları

أَللّٰهُمَّ اهْدِنِي فِيمَنْ هَدَيْتَ ۞ وَعَافِنِي فِيمَنْ عَافَيْتَ ۞
وَتَوَلَّنِي فِيمَنْ تَوَلَّيْتَ ۞ وَبَارِكْ لِي فِيمَا اَعْطَيْتَ ۞
وَقِنِي بِرَحْمَتِكَ شَرَّ مَا قَضَيْتَ ۞ فَإِنَّكَ تَقْضِي وَلَا
يُقْضٰى عَلَيْكَ ۞ إِنَّهُ لَا يَذِلُّ مَنْ وَالَيْتَ وَلَا يَعِزُّ مَنْ
عَادَيْتَ ۞ تَبَارَكْتَ رَبَّنَا وَتَعَالَيْتَ ۞ فَلَكَ الْحَمْدُ
عَلٰى مَاقَضَيْتَ ۞ وَلَكَ الشُّكْرُ عَلٰى مَاأَعْطَيْتَ ۞
اَسْتَغْفِرُكَ اللّٰهُمَّ وَاَتُوبُ اِلَيْكَ ۞

**Mənası:**
Allahım! Məni hidayət verdiklərindən et. Məni şəfa verdiklərindən et. Məni himayənə aldıqlarından et. Mənə verdiyini mübarək eylə. Təqdir etdiyin şeyin şərindən məni qoru. Sən haqla hökm edərsən, heç kəs Sənə hökm edə bilməz. Sənin dost olaraq qəbul etdiyin zəlil olmaz. Sənin düşmən olduğun əziz olmaz. Hökm etdiklərinə görə Sənə həmd olsun. Bəxş etdiklərinə görə Sənə şükürlər olsun. Səndən məni bağışlamanı diləyir və Sənə tövbə edirəm

İPƏKYOLU NƏŞRİYYATI

## AZAN

اَللّٰهُ اَكْبَرُ- اَللّٰهُ اَكْبَرُ
اَللّٰهُ اَكْبَرُ- اَللّٰهُ اَكْبَرُ
أَشْهَدُ اَنْ لَآ اِلٰهَ اِلَّا اللّٰهُ - أَشْهَدُ اَنْ لَآ اِلٰهَ اِلَّا اللّٰهُ
أَشْهَدُ اَنَّ مُحَمَّدًا رَسُولُ اللّٰهِ - أَشْهَدُ اَنَّ مُحَمَّدًا رَسُولُ اللّٰهِ
حَيَّ عَلَى الصَّلَاةِ - حَيَّ عَلَى الصَّلَاةِ
حَيَّ عَلَى الْفَلَاحِ - حَيَّ عَلَى الْفَلَاحِ
(اَلصَّلَاةُ خَيْرٌ مِنَ النَّوْمِ) - (اَلصَّلَاةُ خَيْرٌ مِنَ النَّوْمِ)*
اَللّٰهُ اَكْبَرُ- اَللّٰهُ اَكْبَرُ
لَآ اِلٰهَ اِلَّا اللّٰهُ

Allah ən böyükdür, Allah ən böyükdür
Allah ən böyükdür, Allah ən böyükdür
Mən şahidlik edirəm ki, Allahdan başqa ilah yoxdur,
Mən şahidlik edirəm ki, Allahdan başqa ilah yoxdur
Mən şahidlik edirəm ki, Muhammməd (s.ə.s) Allahın Rəsuludur,
Mən şahidlik edirəm ki, Muhammməd (s.ə.s) Allahın Rəsuludur
Namaza tələsin, Namaza tələsin
Qurtuluşa tələsin, Qurtuluşa tələsin
*(Namaz yatmaqdan xeyirlidir, Namaz yatmaqdan xeyirlidir)*
** (bu sadəcə səhər azanında deyilir)*
Allah ən böyükdür, Allah ən böyükdür
Allahdan başqa ilah yoxdur

## AZAN DUASI

أَللّٰهُمَّ رَبَّ هٰذِهِ الدَّعْوَةِ التَّامَّةِ وَالصَّلَاةِ الْقَائِمَةِ. اٰتِ مُحَمَّدًا الْوَسِيلَةَ وَالْفَضِيلَةَ وَابْعَثْهُ مَقَامًا مَحْمُودًا الَّذِي وَعَدْتَهُ. إِنَّكَ لَا تُخْلِفُ الْمِيعَادَ

**Mənası**:
Ey bu kamil dəvətin və qılınacaq namazın Rəbbi olan Allahım! Muhamməd (s.ə.s) Vəsiləni və fəziləti ver. Onu, vəd etdiyin Məqamı-Məhmuda çatdır. Şübhəsiz ki, Sən vədindən dönməzsən"

İPƏKYOLU NƏŞRİYYATI

## İQAMƏ

اَللّٰهُ اَكْبَرُ- اَللّٰهُ اَكْبَرُ

اَللّٰهُ اَكْبَرُ- اَللّٰهُ اَكْبَرُ

اَشْهَدُ اَنْ لَاۤ اِلٰهَ اِلَّا اللّٰهُ - اَشْهَدُ اَنْ لَاۤ اِلٰهَ اِلَّا اللّٰهُ

اَشْهَدُ اَنَّ مُحَمَّدًا رَسُولُ اللّٰهِ - اَشْهَدُ اَنَّ مُحَمَّدًا رَسُولُ اللّٰهِ

حَيَّ عَلَى الصَّلَاةِ - حَيَّ عَلَى الصَّلَاةِ

حَيَّ عَلَى الْفَلَاحِ - حَيَّ عَلَى الْفَلَاحِ

قَدْ قَامَتِ الصَّلَاةُ - قَدْ قَامَتِ الصَّلَاةُ

اَللّٰهُ اَكْبَرُ- اَللّٰهُ اَكْبَرُ

لَاۤ اِلٰهَ اِلَّا اللّٰهُ

Allah ən böyükdür, Allah ən böyükdür
Allah ən böyükdür, Allah ən böyükdür
Mən şahidlik edirəm ki, Allahdan başqa ilah yoxdur,
Mən şahidlik edirəm ki, Allahdan başqa ilah yoxdur
Mən şahidlik edirəm ki, Muhamməd (s.ə.s) Allahın Rəsuludur,
Mən şahidlik edirəm ki, Muhamməd (s.ə.s) Allahın Rəsuludur
Namaza tələsin, Namaza tələsin
Qurtuluşa tələsin, Qurtuluşa tələsin
Namaz artıq başlamışdır, Namaz artıq başlamışdır
Allah ən böyükdür, Allah ən böyükdür
Allahdan başqa ilah yoxdur

## SALAVATİ-ŞƏRİF (SALƏTİ-UMMİYYƏ)

أَللّٰهُمَّ صَلِّ عَلٰى سَيِّدِنَا مُحَمَّدٍ النَّبِيِّ الْاُمِّيِّ وَعَلٰى اٰلِهِ وَصَحْبِهِ وَسَلِّمْ

**Mənası:**
Allahım! Ümmi Peyğəmbər, əfəndimiz Muhamməd (s.ə.s), Onun əhlinə və əshabına rəhmət et.

İPƏKYOLU NƏŞRİYYATI

# TƏCVİD QAYDALARI

## TƏCVİD NƏ DEMƏKDİR?

Təcvid hərflərin məxrəc və sifətlərinə uymaq surətilə, Qurani-Kərimi xətasız oxumağı öyrədən bir elmdir.

Təcvid kəlməsi lüğətdə "bir şeyi gözəl etmək, bəzəmək" mənalarına gəlir. Termin olaraq isə alimlər tərəfindən belə tərif olunur; *"Təcvid, hər hərfin sifətlərlə əlaqəli haqqını vermək və hər hərfi öz məxrəcinə əks etdirməkdir". "Hər bir hərfin məxrəc və sifətini yerinə yetirmək surətilə Quranı tilavət etməkdir (oxumaqdır)".*

Quranı təcvid ilə oxumaq Hz. Peyğəmbərimizə (s.ə.s) endirildiyi şəkildə oxumaq deməkdir. Quranı oxuyarkən dilin xətadan qorunması, oxuyanların da dünya və axirət məsuliyyətindən qurtulması bu elmin əsas məqsədidir.

Qurani-Kərim müəyyən qanun və qaydalara tabe olunaraq oxunan bir kitabdır. Quran oxuma iddiasında olan hər müsəlman təcvid qaydalarına da tabe olmaq məcburiyyətindədir.

Allah-Təala buyurur ki: **"**(Ey Rəsulum) **Quranı tərtil ilə** (düzgün, nöqsansız və hər hərfinin məxrəcinə, mənasına uyğun; gözəl və ahəngli, dənə-dənə, aramla və doğru olaraq) **oxu!"**

(Müzzəmmil 4)

Həzrət Peyğəmbərimiz də (s.ə.s) buyurur ki: *"Şübhəsiz ki, Allah Qurani-Kərimi nazil olduğu kimi (tərtil və təcvid üzrə doğru olaraq) oxuyanları sevər."*

(Hədisi-Şərif)

Bundan ötəri də istifadə edilə bilinməsi üçün 30-40 səhifəlik təcvidin bir neçə səhifəyə yerləşdirməyə çalışdıq. Buradakı təcvid qaydaları bir möminin Qurani-Kərimi doğru oxumasına kifayət edəcək qədərdir. Təfərrüat və geniş məlumat təcvid kitablarındadır.

İPƏKYOLU NƏŞRİYYATI

## HƏRFİ MƏDD

Məd hərfləri (uzatma hərfləri) 3 dənədir.
1. (ا) Əlif hərfi sakin olub (yəni hərəkəsiz), özündən əvvəlki hərf üstün hərəkəli olarsa, hərfi mədd olur.
2. (و)Vav hərfi sakin olub, özündən əvvəlki hərf ötrə olarsa, hərfi mədd olur.
3. (ي) Yə hərfi sakin olub, özündən əvvəlki hərf əsrəli olarsa, hərfi-mədd olur.

أُوتِينَا أُوذِينَا

## SƏBƏBİ MƏDD

Səbəbi-Mədd (yəni uzatma səbəbləri) iki dənədir:
1. **Həmzə**: Hərəkəli əlifə deyilir. ( اَ اِ اُ ءَ ءِ ءُ )
2. **Sükun**: Hərfin hərəkəsiz halına deyilir. İki növü var:
a. Lazımi-sükun: Hər zaman var olan sükundur. Məs: اِنْ كُنْتُمْ
b. Arizi-sükun: Dayanıldığı zaman var olan, keçildiyində itən sükundur.

اَلْعَالَمِينَ = اَلْعَالَمِينْ

## MƏDDİ-ARİZ

Hərfi-məddən sonra səbəbi-mədd olaraq sükunu-ariz gələrsə, Məddi-Ariz olur. Bir-dörd əlif miqdarı uzadılır. Hökmü caizdir.

عَزِيزٌ حَكِيمٌ نَسْتَعِينُ يَعْلَمُونَ

## MƏDDİ-LAZIM

Mədd hərflərindən sonra səbəbi-mədd olaraq sükunu-lazım gələrsə, Məddi-Lazım olur. Məddi-Lazım 4 cür olur.
1.Kəlmeyi-müsəqqalə (ağır kəlmələr) şəddəli kəlmələrdir.

اَلْحَآقَّةُ [اَلْحَاقْقَةُ] كَآفَّةً [كَافْفَةً]

2. Kəlmeyi-müxaffəfə (xəfif kəlmələr) cəzmli kəlmələrdir. آلْئٰنَ
3. Hərfi-müsəqqalə: (الٓمٓ)-dəki ( ل )-ın oxunuşu (şəddəli kəlmə halına gələn hərfin oxunuşunda olur.)
4. Hərfi-müxaffəfə: (الٓر)-dakı (ل ) və (الٓمٓ)-dəki ( م )-in oxunuşu kimi. (Cəzmli kəlmə halına gələn hərfin oxunuşunda olur.)

## MƏDDİ-LİN

Bir kəlmənin ortasındakı lin hərfi (ى و) sakin olaraq gəlib, özündən əvvəlki hərf üstün hərəkəli olarsa, vəqf edilib durduqda (yəni son hərf sükun olaraq oxunarsa) **Məddi-Lin** olur: ( و ) və (ى) bir miqdar uzadılır. Əgər sondakı sükun Arizidirsə 1-3 əlif miqdarı uzadılır.

وَالصَّيْفِ مِنْ خَوْفٍ وَلَا نَوْمٌ

Əgər sondakı sükun lazımidirsə 2-3 əlif miqdarı uzadılır.
كٓهٰيٰعٓصٓ və عٓسٓقٓ kəlmələrinin ع hərfi; عَيْنْ

**TƏNVİN:** Kəlmələrin sonundakı iki üstün (ـً), iki əsrə (ـٍ), iki ötrədir (ـٌ).

**SAKİN NUN**: Hərəkəsiz **nun**-dur ( نْ ).

**ĞÜNNƏ**: Tənvin və ya sakin nunun bəzi hallarında gənizdən (burun boşluğundan) uğultulu səslə çıxması halına **ğünnə** deyilir.

**İDĞAM**: Hərfləri bir-birinə qataraq şəddəli kimi oxumaqdır.

## İXFA

Tənvin və ya sakin nun ixfa hərflərinə rast gələrsə, gənizdə gizlənərək ğünnəli oxunur, **İxfa** olur.

غَنِيٌّ كَرِيمٌ وَ فَتْحٌ قَرِيبٌ

İxfa hərfləri bunlardır: ت ث ج د ذ ز س ش ص ض ط ظ ف ق ك

## İZHAR

Tənvin və ya sakin nun izhar hərflərinə rast gələrsə, açıq oxunur, **İzhar** olur.

مِنْ خَوْفٍ مَنْ اٰمَنَ غَفُورٌ حَلِيمٌ

İzhar hərfləri bunlardır: ا ح خ ع غ ه

İPƏKYOLU NƏŞRİYYATI

## İQLAB

Tənvin və ya sakin nun iqlab ( ب ) hərfinə rast gələrsə, nun hərfi mim hərfinə çevrilərək ğunnəli oxunur, **İqlab** olur (dodaq yumulur):

لَيُنْبَذَنَّ      مِنْ بَعْدِ

## İDĞAM-MƏAL ĞÜNNƏ

Tənvin və ya sakin nun (و ن م ى) (يَمْنُو) hərflərinə rast gələrsə, bu hərflər birləşdirilərək ğunnəli oxunur və **İdğam -Məal Ğünnə** olur.

خَيْرًا يَرَهُ      وَمَنْ نُعَمِّرْهُ      مِنْ مَاءٍ

**Ğunnəsiz oxunan yerlər:**

Sakin nun (و) ilə vav və ya (ى) yə hərfi eyni kəlmədə bərabər gələrsə, idğam edilmədən izharlı oxunur.

بُنْيَانٌ      قِنْوَانٌ      صِنْوَانٌ      دُنْيَا

## İDĞAM-BİLƏ ĞÜNNƏ

Tənvin və ya sakin nun ( ل ر ) hərflərinə rast gələrsə ğunnəsiz olaraq şəddəli kimi oxunur, **İdğam-Bilə Ğünnə** olur.

غَفُورٌ رَحِيمٌ      مِنْ رَبِّهِمْ      هُدًا لِلْمُتَّقِينَ

## İDĞAM-MİSLEYN

Eyni cinsdən olan iki hərfdən birincisi sakin, ikincisi hərəkəli olarsa, birləşdirilib şəddəli oxunmasına **İdğam -Misleyn** deyilir. İki növü var:

1) Sakin ( نْ ) nun-dan sonra ( ن ) hərfi və sakin ( مْ ) mim-dən sonra ( م ) hərfi gələrsə **İdğam -Misleyn MəalĞünnə** olur.

اَمَّا      مِنْ نَا رٍ

2) Digər hərflərin bir-birinə olan idğamına **İdğam-Misleyn BiləĞünnə** deyilir.

بَلْ لَجُّو = بَلَّجُّو      اَنِ اضْرِبْ بِعَصَاكَ

İPƏKYOLU NƏŞRİYYATI

## SAKİN (مْ) MİM-İN ÜÇ HALI VAR

1. Sakin ( مْ ) mim-dən sonra ( م ) mim hərfi gələrsə, mim-lər dodaqda tutularaq (ğunnəli şəkildə) şəddəli kimi oxunur. **İdğam-Misleyn Məal Ğünnə** olur.

مِمَّا    عَلَيْهِمْ مُؤْصَدَةٌ    اَمْ مَنْ    مُحَمَّدٌ

2. Sakin ( مْ ) mim-dən sonra (ب) hərfi gələrsə, ( م ) ilə (ب) hərfləri dodaqda birləşdirilib ixfa ilə oxunur. **Dodaq İxfası** olur.

تَرْمِيهِمْ بِحِجَارَةٍ    اِنَّ رَبَّهُمْ بِهِمْ    اَمْ بِهِ

3. Sakin ( مْ ) mim ( م və ب) hərflərinin xaricində hər hansı bir hərfə rast gələrsə, **İzhar** edilib ğunnəsiz açıq oxunur.

لَكُمْ دِينُكُمْ    هُمْ فِيهِ

## İDĞAM-MÜTƏCANİSEYN

Məxrəcləri eyni, sifətləri fərqli olan iki hərfdən birincisi sakin, ikincisi hərəkəli olarsa, birinci hərf ikincisiylə birləşdirilib şəddəli kimi oxunur, **İdğam-Mütəcaniseyn** olur.

Üç məxrəci vardır.

1. (ت د ط) hərflərindən ikisi yan-yana gəlib birincisi sakin olarsa, ikincisi ilə birləşdirilərək şəddəli kimi oxunur.

وَ قَالَتْ طَائِفَةٌ    عَبَدْتُمْ    قَدْ تَبَيَّنَ

2. (ث ذ ظ) hərfləri üçün də əvvəlki qayda eynilə tətbiq olunur.

يَلْهَثْ ذٰلِكَ    اِذْ ظَلَمُوا

3. Sakin (بْ) dən sonra ( م ) hərfi gələrsə, (ب) hərfi ( م ) hərfinə birləşdirilərək şəddəli kimi oxunur. (ب) hərfinin əvvəl gəlməsi şərtdir

Yazılışı يَا بُنَيَّ ارْكَبْ مَعَنَا

Oxunuşu يَا بُنَيَّ ارْ كَمْ مَعَنَا

( م ) əvvəl gələrsə “dodaq ixfası” olar.

## İDĞAM -MÜTƏQARİBEYN

Məxrəcləri və sifətləri bir-birinə (qərib) yaxın olan iki hərfdən birincisi sakin, ikincisi hərəkəli olarsa, **İdğam-Mütəqaribeyn** olur. İki məxrəci vardır:

1. (ل və ر ) hərfləri birincisi sakin, ikincisi hərəkəli gələrsə, ikinci ilə biləşdirilib şəddəli kimi oxunur. (ل ) ın əvvəl gəlməsi şərtdir.

قُلْ رَبِّ    بَلْ رَفَعَهُ اللّٰهُ

İPƏKYOLU NƏŞRİYYATI

Əks halda “**izhar**” olar.
2.(ق) və (ك) hərfləri bərabər gələrsə, əvvəlki qayda eynilə tətbiq olunur. Bunun misalı Mursələt surəsinin 20-ci ayəsindəki أَلَمْ نَخْلُقْكُمْ kəlməsidir.

## QALQALƏ

Qalqalə hərfləri ( ق ط د ج ب ) kəlmənin ortasında və ya sonunda sakin olaraq gələrsə, titrədərək oxunur və **Qalqalə** olur.

اَلَم يَجْعَلْ     بِالْحَقّ     يَدْخُلُون

## RA HƏRFİNİN OXUNUŞU

1.( ر ) hərfi üstün və ya ötrə olarsa, ( ر ) sakin olub əvvəlki hərfi üstün və ya ötrə olarsa və ya ra sakin, əvvəli də sakin daha əvvəli üstün və ya ötrə olarsa ( ر ) hərfi qalın oxunur.

وَالْعَصْر     وَانْحَرْ     رَسُولٍ

2. ( ر ) hərfi əsrəli olarsa, ( ر ) sakin olub əvvəlki hərfi əsrə olarsa və ya ra sakin, əvvəli də sakin daha əvvəli əsrə olarsa ( ر ) hərfi incə oxunur.

حِجْرٍ     فَاصْبِرْ     يُرِيدُونَ

3. ( ر ) hərfinin həm qalın, həm də incə oxuna biləcəyi yerlər:

كُلُّ فِرْقٍ     مِنْ مِصْرٍ     اَنْ اَسْرِ     اِذَا يَسْرِ     عَيْنَ الْقِطْرِ     فَاَسْرِ

## SƏKTƏ

**Səktə** nəfəs tutularaq qısa bir müddət durduqdan sonra yenidən nəfəs almadan oxumağa davam etməkdir. Səktə Quranın dörd yerində var.

Kəhf surəsi: İvəcə (səktə) Qayyimən - عِوَجًا سكته قَيِّمًا

Yasin surəsi: Mimmərqadinə (səktə) Həzə - مِنْ مَرْقَدِنَا سكته هٰذَا

**Qeyd: Bu ikisində vəqf daha yaxşıdır.**

Qiyamət surəsi: Vəqilə mən (səktə) raaq - وَقِيلَ مَنْ سكته رَاقْ

Mutaffifin surəsi: Kəllə bəl (səktə) ranə - كَلَّاَ بَلْ سكته رَانَ

**Qeyd: Səktə vəsldə (keçərkən) vacibdir.**

İPƏKYOLU NƏŞRİYYATI

**QEYD:** Bəzi kəlmələrin sonunda yazılan "səktə hə"ləri özündən əvvəlki hərfi və ya hərəkəni qorumaq üçündür. Hər zaman sükunlu oxunur.

سُلْطَانِيَهْ كِتَابِيَهْ مَالِيَهْ حِسَابِيَهْ لَمْ يَتَسَنَّهْ مَاهِيَهْ

## MƏDD VƏ QƏSR

1. Quranın bəzi yerlərində zahirən **Mədd** halı görüldüyü halda ( قصر ) işarəsinə baxıb qısaldılaraq oxunur.

هٰؤُلَآءِ (قصر) وَمَآ اَنَا (قصر) دُعَآؤُكُمْ (قصر) اُوۨلٰٓئِكَ (قصر)

2. Bəzi yerlərdə də zahirən Qəsr halı göründüyü halda, (مد) işarəsinə baxıb uzadılaraq oxunur

مُتَّكِؤُنَ (مد) وَيَدْرَؤُنَ (مد) دَاوُدُ (مد) اُوتُوا (مد)

**Vəqf**: الوقف lüğətdə "durmaq" ya da "durdurmaq" mənalarına gəlir. Təcvid elmində isə "nəfəslə bərabər səsi kəsməkdir" şəklində ifadə edilir. Vəqf sadəcə kəlmənin sonunda edilir. Kəlmənin ortasında vəqf olmaz.

**İbtida:** الإبتداء lüğətdə "başlamaq" deməkdir. Buradakı ibtidadan məqsəd, ya vəqf etdikdən sonra qiraətə davam etmək üçün təkrar başlamaq və ya qiraətə yeni başlamaqdır.

## QURANİ-KƏRİMDƏKİ VƏQF VƏ VƏSL

م – Mütləq durmaq lazımdır.

ط – Durmaq lazım, keçmək isə caizdir.

ج – Keçilə bilər, durmaq daha yaxşıdır. Durmaq mənanı pozmaz.

قف - Dur, mənasına gələn bu işarədə durmaq daha yaxşıdır.

ص – Nəfəs çatmazsa, durmağa icazə verilir, təkrar başdan oxumaq lazım deyil.

ق – Keçmə, dayan işarəsidir. Durmaq caizdir. Durduqda təkrar başdan oxunmaz.

ز – Durmaq caizdir. Lakin keçmək durmaqdan daha fəzilətli, daha yaxşıdır.

لا – Durmaq əsla caiz deyil. Yalnız ayələrin sonundakı (لا)-lərdə durmaq caizdir.

ع – Bəhs edilən qissə və ya mövzunun bitdiyini bildirdiyi üçün bu işarədə durmaq lazımdır. İmam namaz qıldırırsa, bu işarədə bitirib rükuya gedər.

(∴) Çox qısa ara ilə gələn bu üç nöqtənin birincisində durduqda, ikincisində durmaq olmaz. İkincisində durulacaqsa, birincisində durmaq olmaz

İPƏKYOLU NƏŞRİYYATI

## Fatihə Surəsi

أَعُوذُ بِاللّٰهِ مِنَ الشَّيْطَانِ الرَّجِيمِ

بِسْمِ اللّٰهِ الرَّحْمٰنِ الرَّحِيمِ

﴿١﴾ اَلْحَمْدُ لِلّٰهِ رَبِّ الْعَالَمِينَۙ ﴿٢﴾ اَلرَّحْمٰنِ الرَّحِيمِۙ ﴿٣﴾
مَالِكِ يَوْمِ الدِّينِۜ ﴿٤﴾ اِيَّاكَ نَعْبُدُ وَاِيَّاكَ نَسْتَعِينُۜ ﴿٥﴾
اِهْدِنَا الصِّرَاطَ الْمُسْتَقِيمَۙ ﴿٦﴾ صِرَاطَ الَّذِينَ اَنْعَمْتَ
عَلَيْهِمْۙ غَيْرِ الْمَغْضُوبِ عَلَيْهِمْ وَلَا الضَّٓالِّينَ ﴿٧﴾

## Fil Surəsi

بِسْمِ اللّٰهِ الرَّحْمٰنِ الرَّحِيمِ

اَلَمْ تَرَ كَيْفَ فَعَلَ رَبُّكَ بِاَصْحَابِ الْفِيلِۜ ﴿١﴾ اَلَمْ يَجْعَلْ
كَيْدَهُمْ فِي تَضْلِيلٍۙ ﴿٢﴾ وَاَرْسَلَ عَلَيْهِمْ طَيْراً اَبَابِيلَۙ
﴿٣﴾ تَرْمِيهِمْ بِحِجَارَةٍ مِنْ سِجِّيلٍۖ ﴿٤﴾
فَجَعَلَهُمْ كَعَصْفٍ مَأْكُولٍ ﴿٥﴾

İPƏKYOLU NƏŞRİYYATI

## Qureyş Surəsi

بِسْمِ اللّٰهِ الرَّحْمٰنِ الرَّحِيمِ

لِاِيلَافِ قُرَيْشٍۙ ﴿١﴾ اِيلَافِهِمْ رِحْلَةَ الشِّتَٓاءِ وَالصَّيْفِۚ
﴿٢﴾ فَلْيَعْبُدُوا رَبَّ هٰذَا الْبَيْتِۙ ﴿٣﴾ اَلَّذ۪ٓي اَطْعَمَهُمْ
مِنْ جُوعٍ وَاٰمَنَهُمْ مِنْ خَوْفٍ ﴿٤﴾

## Maun Surəsi

بِسْمِ اللّٰهِ الرَّحْمٰنِ الرَّحِيمِ

اَرَاَيْتَ الَّذ۪ي يُكَذِّبُ بِالدّ۪ينِۜ ﴿١﴾ فَذٰلِكَ الَّذ۪ي يَدُعُّ
الْيَت۪يمَۙ ﴿٢﴾ وَلَا يَحُضُّ عَلٰى طَعَامِ الْمِسْك۪ينِۜ ﴿٣﴾ فَوَيْلٌ
لِلْمُصَلّ۪ينَۙ ﴿٤﴾ اَلَّذ۪ينَ هُمْ عَنْ صَلَاتِهِمْ سَاهُونَۙ ﴿٥﴾
اَلَّذ۪ينَ هُمْ يُرَٓاؤُ۫نَۙ ﴿٦﴾ وَيَمْنَعُونَ الْمَاعُونَ ﴿٧﴾

## Kövsər Surəsi

بِسْمِ اللّٰهِ الرَّحْمٰنِ الرَّحِيمِ

اِنَّٓا اَعْطَيْنَاكَ الْكَوْثَرَۜ ﴿١﴾ فَصَلِّ لِرَبِّكَ وَانْحَرْۜ ﴿٢﴾
اِنَّ شَانِئَكَ هُوَ الْاَبْتَرُ ﴿٣﴾

İPƏKYOLU NƏŞRİYYATI

## Kafirun Surəsi

بِسْمِ اللّٰهِ الرَّحْمٰنِ الرَّحِيمِ

قُلْ يَٓا اَيُّهَا الْكَافِرُونَۙ ﴿١﴾ لَٓا اَعْبُدُ مَا تَعْبُدُونَۙ ﴿٢﴾
وَلَٓا اَنْتُمْ عَابِدُونَ مَٓا اَعْبُدُۚ ﴿٣﴾ وَلَٓا اَنَا عَابِدٌ مَا عَبَدْتُمْۙ
﴿٤﴾ وَلَٓا اَنْتُمْ عَابِدُونَ مَٓا اَعْبُدُۜ ﴿٥﴾
لَكُمْ دِينُكُمْ وَلِيَ دِينِ ﴿٦﴾

## Nəsr Surəsi

بِسْمِ اللّٰهِ الرَّحْمٰنِ الرَّحِيمِ

اِذَا جَٓاءَ نَصْرُ اللّٰهِ وَالْفَتْحُۙ ﴿١﴾ وَرَاَيْتَ النَّاسَ يَدْخُلُونَ فِي
دِينِ اللّٰهِ اَفْوَاجاًۙ ﴿٢﴾ فَسَبِّحْ بِحَمْدِ رَبِّكَ وَاسْتَغْفِرْهُۜ
اِنَّهُ كَانَ تَوَّاباً ﴿٣﴾

## Təbbət Surəsi

بِسْمِ اللّٰهِ الرَّحْمٰنِ الرَّحِيمِ

تَبَّتْ يَدَٓا اَبِي لَهَبٍ وَتَبَّۜ ﴿١﴾ مَٓا اَغْنٰى عَنْهُ مَالُهُ وَمَا كَسَبَۜ
﴿٢﴾ سَيَصْلٰى نَاراً ذَاتَ لَهَبٍۚ ﴿٣﴾وَامْرَاَتُهُۜ حَمَّالَةَ الْحَطَبِۚ
﴿٤﴾ فِي جِيدِهَا حَبْلٌ مِنْ مَسَدٍ ﴿٥﴾

İPƏKYOLU NƏŞRİYYATI

## İxlas Surəsi

بِسْمِ اللّٰهِ الرَّحْمٰنِ الرَّحِيمِ

قُلْ هُوَ اللّٰهُ اَحَدٌ ﴿١﴾ اَللّٰهُ الصَّمَدُ ﴿٢﴾ لَمْ يَلِدْ وَلَمْ
يُولَدْ ﴿٣﴾ وَلَمْ يَكُنْ لَهُ كُفُواً اَحَدٌ ﴿٤﴾

İPƏKYOLU NAŞİRİYYATI

## Fələq Surəsi

بِسْمِ اللّٰهِ الرَّحْمٰنِ الرَّحِيمِ

قُلْ اَعُوذُ بِرَبِّ الْفَلَقِ ﴿١﴾ مِنْ شَرِّ مَا خَلَقَ ﴿٢﴾ وَمِنْ شَرِّ
غَاسِقٍ اِذَا وَقَبَ ﴿٣﴾ وَمِنْ شَرِّ النَّفَّاثَاتِ فِي الْعُقَدِ ﴿٤﴾
وَمِنْ شَرِّ حَاسِدٍ اِذَا حَسَدَ ﴿٥﴾

İPƏKYOLU NAŞİRİYYATI

## Nas Surəsi

بِسْمِ اللّٰهِ الرَّحْمٰنِ الرَّحِيمِ

قُلْ اَعُوذُ بِرَبِّ النَّاسِ ﴿١﴾ مَلِكِ النَّاسِ ﴿٢﴾ اِلٰهِ النَّاسِ
﴿٣﴾ مِنْ شَرِّ الْوَسْوَاسِ الْخَنَّاسِ ﴿٤﴾ اَلَّذِي يُوَسْوِسُ فِي
صُدُورِ النَّاسِ ﴿٥﴾ مِنَ الْجِنَّةِ وَالنَّاسِ ﴿٦﴾

İPƏKYOLU NAŞRİYYATI

# Ayətəl-Kürsi

بِسْمِ اللّٰهِ الرَّحْمٰنِ الرَّحِيمِ

اَللَّهُ لَآ إِلَهَ إِلَّا هُوَ الْحَيُّ الْقَيُّومُ لَا تَأْخُذُهُ سِنَةٌ وَلَا نَوْمٌ لَهُ مَا
فِي السَّمَاوَاتِ وَمَا فِي الْأَرْضِ مَنْ ذَا الَّذِي يَشْفَعُ عِنْدَهُ إِلَّا
بِإِذْنِهِ يَعْلَمُ مَا بَيْنَ أَيْدِيهِمْ وَمَا خَلْفَهُمْ وَلَا يُحِيطُونَ بِشَيْءٍ
مِنْ عِلْمِهِ إِلَّا بِمَا شَاءَ وَسِعَ كُرْسِيُّهُ السَّمَاوَاتِ وَالْأَرْضَ وَلَا
يَئُودُهُ حِفْظُهُمَا وَهُوَ الْعَلِيُّ الْعَظِيمُ ﴿٢٥٥﴾

İPƏKYOLU NƏŞRİYYATI

**Mənası:**

**Allahdan başqa heç bir tanrı yoxdur.** (Zatı və kamal sifətləri ilə hər şeyə qadir olub bütün kainatı yaradan və idarə edən, bəndələrini dolandıran və onların işlərini yoluna qoyan) **əbədi, əzəli varlıq Odur. O nə mürgü, nə də yuxu bilər. Göylərdə və yerdə nə varsa** (hamısı) **Onundur. Allahın izni olmadan** (qiyamətdə) **Onun yanında** (hüzurunda) **kim şəfaət** (bu və ya digər şəxsin günahlarının bağışlanmasını xahiş) **edə bilər? O, bütün yaranmışların keçmişini və gələcəyini** (bütün olmuş və olacaq şeyləri) **bilir. Onlar** (yaranmışlar) **Allahın elmindən Onun Özünün istədiyindən başqa heç bir şey qavraya bilməzlər. Onun kürsüsü** (elmi, qüdrət və səltənəti) **göyləri və yeri əhatə etmişdir. Bunları mühafizə etmək Onun üçün heç də çətin deyildir. Ən uca, ən böyük varlıq da Odur!**

# Hər Müsəlmanın bilməsi vacib olan 32 FƏRZ

## İMANIN ŞƏRTLƏRİ

**1. Allahın varlığına və birliyinə inanmaq,**
**2. Mələklərinə inanmaq,**
**3. Kitablarına inanmaq,**
**4. Peyğəmbərlərinə inanmaq,**
**5. Axirət gününə, öldükdən sonra diriləcəyimizə inanmaq,**
**6. Qəza-qədərin, xeyir və şərin Allahdan olduğuna inanmaq.**

## İSLAMIN ŞƏRTLƏRİ

**1. Kəlmeyi-şəhadət gətirmək;**
**2. Namaz qılmaq** *(gündə 5 vaxt; səhər, günorta, ikindi, axşam və yatsı),*
**3. Oruc tutmaq** *(Ramazan ayında 1 ay),*
**4. Zəkat vermək** *(varlı olan şəxslər ildə bir dəfə qazancının qırxdabirini kasıblara verməsi),*
**5. Həccə getmək** *(sağlam və imkanlı olan müsəlmanların ömründə bir dəfə Kəbəni və ətrafında olan bəzi müqəddəs yerləri ziyarət etməsi).*

## DƏSTƏMAZIN FƏRZLƏRİ

Dəstəmazın fərzi 4-dür:
**1. Üzü yumaq, 2. Qolları dirsəklərlə birlikdə yumaq, 3. Başın dörddə birini (əli isladaraq) məsh etmək;**
**4. Ayaqları topuqlarla birlikdə yumaq.**
***(Şafeilərə görə niyyət və tərtibə riayət etməkdə fərzdir)**

## QÜSLÜN FƏRZLƏRİ

Qüslün fərzi 3-dür:
**1. Ağzı yumaq (mazmaza),**
**2. Buruna su çəkmək və burunu yumaq (istinşaq),**
**3. Təpədən dırnağa qədər bütün bədəni,** (iynə ucu qədər quru yer qalmayacaq şəkildə) **yumaq.**
***(Şafeilərə görə niyyət etmək fərzdir)**

## TƏYƏMMÜMÜN FƏRZLƏRİ

Təyəmmümün fərzləri 2-dir:
**1. Təyəmmümə niyyət etmək,**
**2. Əlləri torpağa və ya torpaq cinsindən** (daş, kərpic, çınqıl kimi) **bir şeyə bir dəfə vurub əvvəlcə üzü, sonra bir daha vurub qolları məsh etmək.**

## NAMAZIN FƏRZLƏRİ

Namazın fərzləri 12-dir. Bunlardan 6-sı namaza başlamadan yerinə yetirilən fərzlərdir. Bunlara **Namazın Şərtləri** deyilir. Namazın fərzlərindən 6-sı da namazın içində yerinə yetirilən fərzlərdir. Bunlara **Namazın Rükunları** deyilir. Namazın fərzlərindən biri və ya bir neçəsi olmazsa, o namaz batil olar. Sırası ilə namazın fərzləri belədir:

## NAMAZIN ŞƏRTLƏRİ

**1.Hədəsdən Təharət:** Dəstəmaz, qüsl və təyəmmüm almaq kimi.
**2.Nəcasətdən Təharət:** Bədənimizi, paltarımızı və namaz qılacağımız yerləri kirlərdən (namaza mane olacaq pisliklərdən) təmizləmək.
**3.Sətri-övrət:** Ayıb yerlərini örtmək. Kişilərdə ayıb yerləri göbək ilə diz qapağı arası, qadınlarda isə əl, üz və topuqlardan aşağı ayaqları xaric bütün bədəni övrət sayılır.
**4.Qiblə:** Məkkə şəhərində yerləşən Kəbəyə tərəf dönərək namaz qılmaqdır.
**5.Vaxt:** Hər namazı özünə aid olan vaxtında qılmaqdır.
**6.Niyyət:** Hansı namazı qılacağını bilmək, niyyət etmək.

## NAMAZIN RÜKUNLARI

**1.İftitah Təkbiri** *(Başlama Təkbiri)*: Namaza "Allahu Əkbər" təkbiri ilə başlamaq.
**2.Qiyam:** Namazda ayaq üstə durmaq.
**3.Qiraət:** Namazda Qurani-Kərimdən bir miqdar oxumaq.
**4.Rüku:** Namazda əllər dizlərə çatacaq şəkildə əyilmək və vücudu yerə paralel tutmaq.
**5.Səcdə:** Namazda burnu, alnı, əlləri, dizləri və ayaqları yerə qoymaq.
**6.Qədeyi-axirə** *(Son Oturma, Təşəhhüd)*: Namazın axırında, son oturuşda təşəhhüd miqdarı (əttəhiyyatu oxunacaq qədər) oturmaq.

İPƏKYOLU NƏŞRİYYATI